

# Taekvondoda ilk dəfə Olimpiya medalı qazanıldı

## Təmsilçimiz Patimat Abakarova Rionu bürünc medalla tərk edir



Rio Olimpiadasında hər gün gərgin idman mübarizəsinin şahidi oluruq. Planetin ən güclü atletlərinin çıxış etdiyi 4 illiyin zirvə yarışında mükafatçılar sırasında yer almaq üçün hərtərəfli hazırlıqlı olmaq çox vacibdir. Həm fiziki, həm taktiki, həm də psixoloji cəhətdən rəqibdən üstün olduğu təqdirdə hər bir idmançı Olimpiadada arzusuna çatır. Təbii ki, Azərbaycan idmançıları da Rioda medalların sayını artırmaq üçün gərgin yarışın içərisindədirlər. Sevindirici haldır ki, hər gün ölkəmizin hesabına medal yazılır.

Belə medallardan biri də Azərbaycan Olimpiya tarixində ilk dəfə olaraq taekvondoda qazanılıb. Patimat Abakarova bürünc medalla kifayətlənib. Ölkəmiz taekvondoda əldə etdiyi nailiyyətə qədər yalnız 6 idman növündə Olimpiya medalı əldə etmişdi. Bunlar güləş, atıcılıq, cüdo, boks, ağırlıqqaldırma, kayak və kanoe ilə avarçəkmədir. Taekvondo bu siyahıda 7-ci olub. Bununla da avqustun 17-də Azərbaycanın hesabında olan medalların sayı 9-a yüksəlib.

Təmsilçimiz Patimat Abakarova 49 kq çəki dərəcəsində mübarizə aparıb. İlk görüşdə Serbiya idmançısı Tiyana Boqdanoviçə məğlub olan təmsilçimizin rəqibi finala yüksəldiyi üçün taekvondoçumuz təsalliverici görüşlərə qatılmaq imkanı əldə edib. Avropa çempionatının və ilk Avropa Oyunlarının mükafatçısı P.Abakarova ilk döyüşdə çinli Jinqyu Vu ilə qarşılaşıb. Hesabda iki dəfə geri düşməsinə baxmayaraq, sona yaxın rəqibin başına əla zərbə endirən idmançımız 4:3 hesablı qələbə qazanıb. İdmançımız bürünc medal uğrunda



görüşdə fransalı Yasmin Azeizə 7:2 hesabı ilə qalib gələrək XXXI Yay Olimpiya Oyunlarını bürünc mükafatla başa vurub.

Görüşdən sonra Patimat mətbuata açıqlamasında taekvondoda Azərbaycana Olimpiadada ilk medalı qazandırdığına görə çox sevincli olduğunu bildirib: “İlk döyüşdə çox həyəcanlı idim. Ona görə də məğlub oldum. Təsəlli yarışında iştirak etmək şansı yarananda söz verdim ki, bu imkandan istifadə etməliyəm. Bilirəm ki, çoxları mənim medal qazanacağıma inanmırdı. Lakin mənim inamım var idi. Rəqib çox güclü idi və hesab bərabər gedirdi. Hiss etdim ki, sonadək mübarizə aparsam, uda bilərəm. Son saniyələrdə qələbəni təmin edə bildim. İlk döyüşdə məğlub olduqdan sonra Tiyana Boqdanoviçin qələbəsi üçün dua edirdim. Sağ olsun, mənim gümanlarmı yanıltmadı. Mən bura medal üçün gəlmişdim və qazandım. Taekvondo tariximizdə ilk medalımızı qazanmaq şərəfi mənə nəsib olduğu üçün çox xoşbəxtəm”.

Xatırladaq ki, Patimat Abakarova 1994-cü il oktyabrın 23-də Rusiya Federasiyasının Dağıstan Respublikasının Mahaçqala şəhərində anadan olub. Azərbaycan Taekvondo Federasiyasının yığma komandasının tərkibinə 2012-ci ilin sonlarında qatılıb. 2013-cü ildə İndoneziyadakı İslam Həmrəylik Oyunlarında və “Bakı-2015” I Avropa Oyunlarında bürünc medal qazanıb. Ötən il Koreya Respublikasında hərbçilərin dünya çempionatında 1-ci, Böyük Britaniyadakı beynəlxalq Qran-pri turnirində isə 3-cü yerə sahib olub. 2016-cı ildə İsveçrədə böyüklər arasında Avropa çempionatında 2-ci yeri tutmaqla kifayətlənib.

Bu ilin yanvarında İstanbulda təşkil olunmuş taekvondo üzrə Avropa Olimpiya təsnifat turnirinin qalibi olan P.Abakarova, eyni zamanda Rio Olimpiadasına lisenziya qazanıb. Ötən il Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif edilib.

***Elçin CƏFƏROV, “Azərbaycan”***